AZƏRİNŞAAT

"Azərinşaatservis" MMC
Azərbaycan, Bakı, AZ 1108, Dərnəgül qəs., 11-ci Dağlıq k., 3105
**Tel.:** (+994 12) 447 70 03 (04) **Faks:** (+994 12) 565 04 54
www.azerinsaat.com

**PRES RELİZ**

# "Azərinşaatservis – Siqaretə Son!" kampaniyası başladı.

*"Azərinşaatservis" MMC*
*Bakı, Azərbaycan*
*2010/08/20*

"Azərinşaatservis" MMC-də öz işçilərini daha sağlam bir iş şəraiti və daha sağlam bir həyat tərzi ilə təmin etmək üçün "Siqaretə Son!" kampaniyasını başladı. Siqareti tərgitmək istəyən işçilərə dəstək olmağı hədəfləyən bu kopmaniya çərçivəsində artıq bir çox işlər görülmüşdür.




Bir il davam etdirilməsi nəzərdə tutulan kampaniya çərçivəsində mərkəzi və texniki ofislərdə, eləcə də layihələrdə "Azərinşaatservis" üçün xüsusi hazırlanmış plakatlar asılıb. Bu kapmaniya və eləcə də aylıq tədbirlər haqda insanları məlumatlandırmaq üçün www.siqareteson.az veb səhifəsi hazırlanmışdır. Bununla yanaşı, hər ay təşkil edilməsi nəzərdə tutulan tədbirlərdə iştirak edənlərə sürpriz hədiyyələr veriləcək. Kampaniyanın sonunda siqareti tərgitməyə nail olan "Azərinşaatservis" işçiləri isə xüsusi olaraq mükafatlandırılacaq. Eyni zamanda peşəkar həkim nəzarəti altında siqareti tərgitmək istəyənlər də bu kampaniya çərçivəsində peşəkar həkim məsləhətindən faydalana biləcək.
Kampaniya çərçivəsində həyata keçiriləcək olan ilk tədbir kimi peşəkar həkimlərin də iştirak edəcəyi "siqaretə son seminarı" haqda yaxında www.siqareteson.az veb səhifəsi və e-mail vasitəsilə işçilərə məlumat veriləcək.

*2003-cü ildə qurulan "Azərinşaatservis" MMC Azərbaycanda və Qafqaz regionunda yüksək keyfiyyətli xidmətlər göstərməklə yol və dəmiryolu tikintisi sahəsində liderlik iddiasında olan bir şirkətdir. Şirkət əsas fəaliyyət dairəsi olan avtomobil və dəmiryolu tikintisində A-dan Z-yə bütün növ xidmətləri öz imkanları hesabına həyata keçirir.*

***Mətbuat üçün əlaqəli şəxs:***
**Kənan KƏRİMLİ,** İctimaiyyətlə Əlaqələr və Mətbuat üzrə Menecer
**Tel.:** (+994 12) 447 70 03 (04)
**Mob.:** (+994 50) 255 38 86
**E-mail**: k.karimli@azerinsaat.com
**www.azerinsaat.com**